

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı


Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 218 (23.860)

24 noyabr 2021-ci il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 23-də Filippin Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri xanım Maria Elena Alqabrenin etimadnaməsini qəbul edib. Prezident İlham Əliyev Azərbaycanın Filippinlə əməkdaşlığın, o cümlədən ticarət əlaqələrinin genişləndirilməsində maraqlı olduğunu bildirib. Dövlətimizin başçısı ölkəmizin Qoşulmama Hərəkatına sədrliyinin 2023-cü ilədək uzadılması və bu təşkilat çərçivəsində Azərbaycanın irəli sürdüyü təşəbbüslərə, xüsusilə vaksinlərin ədalətli bölgüsü ilə bağlı təşəbbüsə Filippinin verdiyi dəstəyə görə minnətdarlığını bildirib. Prezident İlham Əliyev Qoşulmama Hərəkatının sədri kimi Azərbaycanın mövqeyinin həmişə üzv ölkələrin maraqlarının qorunması və əlaqələrin möhkəmləndirilməsindən ibarət olduğunu vurğulayıb. İkitərəfli münasibətlərə gəldikdə, dövlətimizin başçısı siyasi və iqtisadi sahələrdə əlaqələrin fəallaşdırılması, iqtisadi-ticari münasibətlərin qurulmasının vacibliyini qeyd edib.

***

Prezident İlham Əliyev noyabrın 23-də Banqladeş Xalq Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Qousal Azam Sarkerin, Kamboca Krallığının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Kim Henq Measın, Çili Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Rodriqo Arkosun etimadnamələrini qəbul edib.



## Babək rayonunun Göynük kəndi müasir yaşayış məntəqəsinə çevrilib

Ölkəmizdə ulu öndər Heydər Əliyev siyasi xəttinin uğurla davam etdirilməsi Naxçıvan Muxtar Respublikasını da davamlı inkişaf yoluna çıxarmış, yaşayış məntəqələri müasirliyə qovuşmuşdur. Bütün sahələrdə əldə olunan dinamik inkişaf kəndləri də əhatə etmiş, geniş quruculuq işləri aparılmış, sakinlərin rahat yaşayışına xidmət edən müasir sosial obyektlər inşa olunmuşdur. Ölkə başçısı cənab İlham Əliyevin də dediyi kimi: ***“Naxçıvanda işlər çox yaxşı gedir, quruculuq-abadlıq işləri aparılır... Bu da dinamik inkişafın təzahürüdür”.***

## Göynük kənd məktəbində hərtərəfli tədris şəraiti yaradılıb





Noyabrın 22-də Göynük kənd tam orta məktəbinin yeni binası istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov məktəbdə yaradılan şəraitlə tanış olmuşdur.

Məlumat verilmişdir ki, 3 mərtəbədən ibarət olan məktəbdə 12 sinif otağı, kimya-biologiya və fizika laboratoriyaları, 1 elektron lövhəli sinif, hərbi kabinə, şahmat sinfi, kompüter, psixoloq və müəllimlər otaqları, STEAM kabinəsi, kitabxana, qarderob və idman zalı yerləşir. Kitabxana fondunda 1014 kitab vardır. STEAM kabinəsində 1 elektron lövhə, 2 kompüter, 3D printer quraşdırılmışdır. Kabinə mikrobit, arduino setləri və digər öyrədici STEAM qurğuları, həmçinin yeni nəşr olunan ədəbiyyat və dərsliklərlə təchiz edilmişdir. Şagirdlər hazırladıqları “Hərəkətlə aktivləşdirilmiş LED pilləkən işıqları” və “Yağışdan qorunmaq üçün avtomatik avtobus dayanacağı” layihələrini təqdim etmişlər.

Müəllim Günay Babayeva demişdir: “Məktəbdə STEAM kabinəsinin yaradılması şagirdlərin yeni texnologiyaların, elmin texniki sahələrinin öyrənilməsinə geniş imkanlar açacaqdır. Şagirdlərimizin hərtərəfli yetişməsinə və inkişafına göstərilən qayğıya, tədrisdə yeni təlim üsullarının tətbiqi üçün yaradılan şəraitə görə minnətdarlığımızı bildiririk”.

Məktəbdə internetə çıxışı olan 12 kompüter və 3 elektron lövhə quraşdırılmışdır. Ali Məclisin Sədri elektron lövhəli sinifdə Dövlət Bayrağı Muzeyi ilə 200-dən artıq təhsil müəssisəsi arasında “Azərbaycan Respublikasının dövlət rəmzləri” mövzusunda keçilən interaktiv dərsi izləmişdir.

Məktəbin kimya-biologiya və fizika laboratoriyalarının müasir avadanlıqlarla təchizi və elmi yeniliklərə uyğun qurulması şagirdlərin dərsləri daha yaxşı mənimsəmələrinə şərait yaradacaq. Dünya standartlarına cavab verən əyani vasitələrlə təminat şagirdlərin bu sahədə biliklərini daha da möhkəmləndirəcəkdir.



Göynük kənd tam orta məktəbinin bütün lazımi əyani vasitələrlə təchiz olunmuş şahmat sinfi, geniş idman zalı və məktəbin həyətində qurulan açıq idman qurğuları şagirdlərin fiziki sağlamlığına və əqli inkişafına xidmət edəcəkdir. Şagirdlərin vətənpərvərlik ruhunda tərbiyəsi üçün də lazımi şərait yaradılmış, hərbi kabinə çağırışaqədərki hərbi hazırlıq dərslərinə uyğun məlumat stendləri ilə təchiz edilmişdir.

Sonra məktəbin pedaqoji kollektivi ilə görüş olmuşdur.

Naxçıvan Muxtar Respublikasının təhsil naziri Rəhman Məmmədov çıxış edərək demişdir ki, altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin birinci sessiyasında qəbul edilən Fəaliyyət Proqramına uyğun olaraq muxtar respublikada təhsil müəssisələrinin maddi-tədris bazasının möhkəmləndirilməsi, innovativ tədris metodlarının tətbiqi sahəsində ardıcıl tədbirlər həyata keçirilir. Cari ilin ötən dövründə 6 məktəb yenidən qurularaq istifadəyə verilmişdir. Təhsil müəssisələrinin elektron lövhə və müasir kompüterlərlə təchizatı da diqqətdə saxlanılır. Təkcə bu ilin ötən dövründə ümumtəhsil məktəblərinə 30 elektron lövhə, 184 kompüter verilmişdir. Hazırda ümumtəhsil məktəblərində 5700-dən çox kompüter, 650-dən çox elektron lövhə quraşdırılmışdır ki, bu da tədrisin yüksək səviyyədə təşkilinə, innovativ təlim metodlarının tətbiqinə öz töhfəsini verməkdədir. Göynük kənd tam orta məktəbinin də maddi-tədris bazası yaxşılaşdırılmış, müasir tədris şəraiti yaradılmışdır. 2020-2021-ci tədris ili üzrə muxtar respublikada 33 məktəb ali və orta ixtisas təhsili müəssisələrinə qəbul imtahanlarında 100 faizlik nəticə göstərmişdir ki, onlardan da biri Göynük kənd tam orta məktəbidir. Rəhman Məmmədov göstərilən hərtərəfli diqqət və qayğıya görə muxtar respublikanın təhsil işçiləri adından minnətdarlıq etmişdir.

Məktəbin gənc müəllimi Zivər Hacıyeva minnətdarlıq edərək demişdir: “Ali Məclis Sədrinin qayğısı ilə Göynük kəndi də müasir kəndlər sırasına qoşulur. Kənddə aparılan quruculuq ünvanlarından biri də Göynük kənd tam orta məktəbidir. Məktəbimizdə müasir laboratoriya və fənn kabinələri yaradılmış, təhsil ocağımız elektron lövhə və kompüterlərlə təchiz edilmişdir. Artıq şagirdlərimiz ən müasir təhsil şəraitinə malik məktəbdə elmin sirlərinə yiyələnəcəklər. Muxtar respublikada gənclərin yaxşı təhsil alması ilə yanaşı, onların işlə təminatı üçün də gözəl şərait yaradılmışdır. Mən də yaradılan şəraitdən bəhrələnmişəm. Müəllimlərin işə qəbulu ilə bağlı keçirilən müsabiqədə yüksək nəticə göstərərək Naxçıvan şəhərində

*Ardı 2-ci səhifədə*





yaşamağıma baxmayaraq, Göynük kənd tam orta məktəbində tarix müəllimi kimi çalışıram. Mənimlə bərabər, 3 gənc kadr da müsabiqədə yüksək nəticə əldə edərək Göynük kənd tam orta məktəbində fəaliyyətə başlamışdır. Məktəbimizdə yaradılan müasir təhsil şəraiti müəllimlərin qarşısına böyük məsuliyyət qoyur. Bundan sonra da tədrisin yüksək səviyyədə təşkilində əzm və səylə çalışacağıq".

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Göynük kənd tam orta məktəbinin kollektivini yeni məktəb binasının istifadəyə verilməsi münasibətilə təbrik edərək demişdir: Bu gün müasir tədrisin tələblərinə cavab verən məktəb binası kollektivin istifadəsinə verilir. Məktəb hər bir ölkənin gələcəyinə xidmət edir. Məktəbdə yaxşı tədris şəraiti varsa, gənclər təhsilli və vətənpərvər böyüyürsə, o ölkənin gələcəyi də etibarlı olur. Ona görə də ümummilli liderimiz Heydər Əliyev Azərbaycana hər iki rəhbərliyi dövründə təhsilə böyük diqqət və qayğı göstərmişdir. Əgər Sovetlər Birliyi dönəmində ümummilli liderimizin qayğısı ilə gənclər seçilib keçmiş ittifaqın ən yaxşı ali məktəblərinə təhsil almağa göndərilirdisə, müstəqillik dövründə isə gənclərimiz xarici ölkələrin aparıcı ali məktəblərində təhsil alırlar. Çünki bu gün də ölkəmizdə ulu öndərin siyasəti uğurla davam etdirilir.

"Ümummilli liderimizin təşəbbüsü ilə Sovetlər Birliyi dövründə təhsil alan gənclər müstəqillik illərində ölkəmizin əsas kadr potensialını təşkil edirdisə, bu gün ölkəmizdə və xaricdə təhsil almış gənclər dövlət quruculuğunda fəal iştirak edirlər", – deyən Ali Məclisin Sədri bildirmişdir ki, dövlətimiz məktəb işinə diqqət və qayğı göstərir, müəllim əməyinə yüksək qiymət verir. Hər il gənclərimiz Prezident təqaüdünə layiq görülür, müəllimlər təltif olunurlar. Diaqnostik qiymətləndirmədən keçən müəllimlərin əməkhaqqı artırılır. Bu gün ucqar dağ kəndi olmasına baxmayaraq, Göynük kəndində müəllimlər yüksək əməkhaqqı alır. Eyni zamanda Göynük məktəbindəki şərait mərkəzdəki məktəblərdən fərqlənmir. Ona görə də gənclər mərkəzdə yaşamalarına baxmayaraq, kənd məktəblərini seçir, burada fəaliyyət göstərirlər. Məktəb bütün fənlər üzrə müəllimlərlə təmin olunmuşdur. Bu da imkan verir ki, nailiyyətlər artsın. Təhsil ocağının son 5 ildəki nailiyyətləri muxtar respublikanın orta göstəricisindən yüksəkdir.

Ali Məclisin Sədri nailiyyətlərə görə kollektivə təşəkkür etmiş və tədrisdə uğurlar arzulamışdır.

Binanın həyətində bufet və qazanxana tikilmiş, açıq idman qurğuları quraşdırılmış, gül kolları və ağaclar əkilmişdir.




## Xidmət mərkəzi sakinlərin rahatlığına hesablanıb

Həmin gün Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Göynük kəndində xidmət mərkəzinin də açılışını etmişdir.

Məlumat verilmişdir ki, xidmət mərkəzində bərbərxana, qadın gözəllik salonu, ət satışı yeri, anbar, ərzaq və təsərrüfat malları mağazaları yerləşir. Burada xidmətin təşkili üçün nümunəvi şərait yaradılmış, 5 nəfər işlə təmin olunmuşdur.

Ali Məclisin Sədri ailə təsərrüfatlarında istehsal olunmuş məhsulların satışına üstünlük verilməsi və sakinlərin tələbatının nəzərə alınması barədə tapşırıqlar vermişdir.

## 3 kəndi birləşdirən avtomobil yolu yenidən qurulub





Ümummilli lider Heydər Əliyevin ***"Yol iqtisadiyyat, mədəniyyət, bir sözlə, həyat deməkdir"*** fikri əsas götürülərək ölkəmizdə yol təsərrüfatının inkişafına xüsusi diqqət yetirilir. Bu istiqamətdə həyata keçirilən tədbirlər çərçivəsində Göynük kənd avtomobil yolu da yenidən qurulmuşdur.

Noyabrın 22-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov yolda yaradılan şəraitlə tanış olmuşdur.

Bildirilmişdir ki, ümumi uzunluğu 9,5 kilometr olan Nəcəfəlidizə-Nəhəcir-Göynük kənd avtomobil yolunun yatağı genişləndirilmiş, 2,2 kilometrə asfalt örtük verilmişdir. Hazırda tikinti işləri davam etdirilir. Yolda 38 metal boru, 20 beton su keçidi qoyulmuş, 3 körpü təmir edilmiş, 1230 metr su kanalı çəkilmişdir.

Ali Məclisin Sədri Nəhəcir-Göynük kənd avtomobil yolunda işlərin davam etdirilməsi barədə tapşırıq vermişdir.

## Dövlət qurumları sakinlərə vahid mərkəzdən xidmət göstərəcək



Noyabrın 22-də Göynük kənd mərkəzi istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov binada yerləşən təşkilatların fəaliyyəti və yaradılan şəraitlə maraqlanmışdır.

Məlumat verilmişdir ki, birmərtəbəli kənd mərkəzində inzibati ərazi dairəsi üzrə nümayəndəlik, bələdiyyə, rabitə evi, polis sahə və baytarlıq məntəqələri, kitabxana, Yeni Azərbaycan Partiyası ərazi ilk təşkilatı, arxiv, statistika otağı, klub və 26 yerlik zal yerləşir. Kitabxana fondunda 6587 kitab vardır. Rabitə evində 96 nömrə tutumlu yeni nəsil ATS quraşdırılmış, telekommunikasiya şəbəkəsi yaradılmış və ilk dəfə stasionar telefon rabitə xidməti istifadəyə verilmişdir.

Yeni Azərbaycan Partiyası ərazi ilk təşkilatının 58 üzvü vardır ki, onlardan da 17-si gənc, 26-sı isə qadındır. Ərazi ilk təşkilatının sədri Füzuli Məmmədov partiya üzvləri adından yaradılan şəraitə görə minnətdarlıq edərək demişdir: "Bu gün Göynük kəndi bayram əhvali-ruhiyyəsindədir. Ali Məclis Sədrinin gəlişi sakinlərin böyük sevincinə səbəb olmuş, həyata keçirilən geniş quruculuq işləri ruh yüksəkliyi yaratmışdır. Diqqət və qayğı sayəsində Göynük kəndi muxtar respublikanın müasir kəndlərindən birinə çevrilmişdir. Bütün sahələr üzrə yaradılan nümunəvi şərait insanların rahat yaşamasına xidmət edir. Həyata keçirilən quruculuq işlərindən bizim ilk partiya təşkilatına da pay düşmüş, nümunəvi iş şəraiti yaradılmışdır. Bundan sonra da kəndimizin yaşıllaşdırılmasında və abadlaşdırılmasında partiya üzvləri daha böyük fəallıq göstərəcəklər".

*Ardı 3-cü səhifədə*





İnzibati ərazi dairəsi üzrə nümayəndə Yaqub Xudatov demişdir: “Bu gün kəndimiz kompleks şəkildə abadlaşdırılmışdır. Sovet hakimiyyəti illərində Göynükdə heç bir tikili inşa olunmamışdır. 2004-cü ildə Ali Məclis Sədrinin tapşırığı ilə kəndimizdə yeni məktəb binası tikilmiş, bir il sonra 7 kilometr məsafədən kəndimizə içməli su xətti çəkilmiş, ötən il həmin xətt 1 kilometrə yaxın uzadılmışdır. Bu gün Göynük kəndi üçün tarixi və əlamətdar bir gündür. Çünki Babək rayonunun ucqar dağ kəndi olan Göynük müasir görkəmə qovuşur. Kənd sakinləri, əsasən, əkinçilik, arıçılıq, heyvandarlıq və maldarlıqla məşğul olurlar. Dövlətimizin diqqət və qayğısı sayəsində ailə təsərrüfatları yaradılmış şəraitdən istifadə edərək məhsul istehsalını ilbəil artırırlar. İstehsal etdikləri məhsulların bazarlarda rahat satışını təşkil edərək dolanışıqlarını təmin edirlər. Biz də qurulanları qoruyacaq, göstərilən diqqət və qayğıya əməli işimizlə cavab verəcəyik”.

Ali Məclisin Sədri iclas zalında maarifləndirici tədbirlərin və görüşlərin keçirilməsi barədə tapşırıqlar vermişdir.

Bildirilmişdir ki, kənddə əsas diqqət yetirilən sahələrdən biri də baytarlıq işinin təşkilidir. Bu gün Babək rayonunda epizootik vəziyyət sabitdir. Bunun səbəbi dərman preparatları və digər tibbi avadanlıqlarla təminat, peyvəndləmə və dezinfeksiya tədbirlərinin vaxtında görülməsidir. Aparılan profilaktik tədbirlərin nəticəsidir ki, rayonda bu sahədə heç bir xəstəlik müşahidə olunmur.

Kəndlərdə müasir səhiyyə müəssisələrinin tikilməsi insan amilinə verilən yüksək qiymətin əyani göstəricisidir. Kənd mərkəzində yerləşən feldşer-mama məntəqəsində məntəqə müdiri və manipulyasiya otaqları vardır. Məntəqə ginekoloji müayinə masası və alət dəsti, təcili yardım çantası, qlükometr, boyölçən, tərəzi, soyuducu və ehtiyac olan digər köməkçi tibbi ləvazimatlarla təmin edilmişdir.

Ali Məclisin Sədri peyvənd və patronaj işinin təşkili, eləcə də səhiyyə maarifinə üstünlük verilməsi, gigiyenik qaydalara əməl olunması barədə tapşırıqlar vermişdir.

Sonra sakinlərlə görüş olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov sakinləri təbrik edərək demişdir: 2004-cü ildə ilk dəfə kənddə məktəb binası tikilib istifadəyə verildi, inzibati ərazi dairəsi üzrə nümayəndəlik yaradıldı. 2014-cü ildə Göynük kənd inzibati ərazi dairəsi Culfa rayonunun tabeliyindən çıxarılaraq Babək rayonunun tabeliyinə verildi, kəndin inkişafı üçün lazım olan bütün işlər həyata keçirildi.



Ali Məclisin Sədri demişdir: Göynük kəndinin eramızdan əvvəl başlayan qədim tarixi vardır. Kənd tarixi karvan yolu üzərində yerləşmiş, zaman-zaman göynüklülər digər bölgələrə köçərək məskunlaşmışlar. Hazırda Türkiyə ərazisində 3 yerdə, Azərbaycanda isə Şəki rayonunda Göynük adlı yaşayış məntəqəsi vardır. Ehtimal olunur ki, onlar da buradan vaxtilə karvan yolu ilə gedib o yerlərdə məskunlaşan sakinlərdir. Göynük səfalı və geniş imkanlara malik olan kənddir. Bu gün həm bələdiyyə və dövlət, həm də şəxsi mülkiyyətdə olan torpaqlar imkan verir ki, kəndin inkişafı bundan sonra da təmin olunsun. Göynükdə, əsasən, heyvandarlıq və maldarlıq inkişaf edib, məskunlaşma artıb, yeni evlər tikilib. Bu da inkişafın göstəricisidir. Yaradılan şəraitdən sonra məskunlaşma daha da artacaq və ərazidən səmərəli istifadə olunacaq, maldarlıq, heyvandarlıq, arıçılıq, meyvəçilik, bitkiçilik inkişaf etdiriləcəkdir. Bunun üçün isə lazım olan hər bir şərait var. Sakinlərin rayon mərkəzinə, Naxçıvan şəhərinə gediş-gəlişinin rahat olması üçün yol da abadlaşdırılıb. Yolda işlər hələ davam etdiriləcək. Bütün bunlar insanların rahat yaşaması üçündür. Kənd tamamilə qazlaşdırılıb, daimi elektrik enerjisi ilə təmin olunub, rabitə, internet, poçt və tibb xidməti yaradılıb.

Ali Məclisin Sədri görülən işlər münasibətilə sakinləri təbrik etmiş və əminliyini bildirmişdir ki, kənd bundan sonra da abadlaşacaq, məskunlaşma artacaqdır.

Göynük kənd sakinləri adından minnətdarlıq edən Təmleyxa İsayev demişdir: “Kəndimizdə fəaliyyət göstərən dövlət orqanları əvvəllər şəraiti olmayan vəziyyətdə əhaliyə xidmət göstərirdilər. Ali Məclis Sədrinin qayğısı ilə burada böyük quruculuq işləri görülmüşdür. Bu gün müasirtipli məktəb, kənd və xidmət mərkəzləri kənd sakinlərinin istifadəsinə verilir. Artıq hər bir şəraiti olan kənd mərkəzində həm inzibati ərazi dairəsi üzrə nümayəndəlik, həm də digər təşkilatlar əhaliyə yüksək səviyyədə xidmət göstərəcəklər. Məktəbdə tədrisin müasir tələblər səviyyəsində qurulması üçün hər cür şərait yaradılmışdır. Vaxtilə kəndimizdə əhalinin zəruri ehtiyaclarının ödənilməsi üçün heç bir şərait olmadığından kənd sakinləri qonşu kəndlərə və yaxud Naxçıvan şəhərinə getməli olurdular. Lakin bu gün istifadəmizə verilən müasir xidmət mərkəzi əhalinin zəruri ehtiyaclarının ödənilməsini tam təmin edəcəkdir. Kəndimizdə müasir poçt-rabitə və internet xidmətlərinin göstərilməsi üçün hərtərəfli şərait yaradılmışdır. Yollarımız asfaltlanmış, körpü tikilmiş, kənddə müasirtipli ATS quraşdırılmış, əhali fasiləsiz elektrik enerjisi, təbii qaz və internetlə təmin olunmuşdur. Kəndimizin istər suvarma, istərsə də içməli su təminatı öz həllini tapmışdır. Görülən işlər sakinlərin rahatlığına və yaxşı yaşamasına xidmət edir”.

* * *

Göynük kəndində yeni sosial obyektlər tikilərkən bir sıra abadlıq işləri də görülmüşdür. Kənddə 2480 metr yeni fiber-optik, 650 metr yeraltı kabel, 1280 metr hava rabitə xətti çəkilmiş, 55 rabitə dirəyi basdırılmışdır. Həmçinin elektrik təsərrüfatı tamamilə yenilənmiş, 2076 metr məsafədə məftil naqillər kabel xətti ilə əvəz edilmiş, 1200 metr hava elektrik verilişi xətti çəkilmişdir. Bundan başqa, 340 poqonometr polietilen borularla yeni tikililərə qaz xətti çəkilmiş, 11 min poqonometr qaz xəttində təmir-bərpa işləri aparılmışdır.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**

***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Naxçıvanşünaslıq Mərkəzinin və AMEA Naxçıvan Bölməsinin elmi-tədqiqat institutlarının əməkdaşlarının iştirakı ilə “Oxunması zəruri olan kitabların Siyahısı”na daxil olan “Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin Yeni 2001-ci il, Yeni əsr və Üçüncü minillik münasibətilə Azərbaycan xalqına müraciəti” kitabının müzakirəsi keçirilmişdir.***

## Kitab müzakirəsi keçirilmişdir

Tədbiri giriş sözü ilə mərkəzin elmi katibi Nihad Tarverdiyev açmışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2017-ci il 28 avqust tarixdə imzaladığı “Oxunması zəruri olan kitablar haqqında” Sərəncamın əhəmiyyəti tədbir iştirakçılarının diqqətinə çatdırılmışdır. Bildirilmişdir ki, müzakirəsi keçirilən kitab özündə xalqımız üçün mühüm əhəmiyyət kəsb edən tarixi, siyasi-ideoloji hadisələri əhatə edir. Bu müraciətdə milli tariximizin bütün dövr və mərhələlərinə yüksək peşəkarlıqla qiymət verilib, geridə qalan əsrlərdə baş vermiş ictimai-siyasi proseslər barədə obyektiv mülahizələr səsləndirilib və gələcək inkişaf yolları müəyyənləşdirilib.

Qeyd olunmuşdur ki, Azərbaycanda yenidən siyasi hakimiyyətə qayıdan ulu öndər Heydər Əliyev ilk günlərdən respublikada qanunçuluğun qorunması, idarəçiliyin möhkəmləndirilməsi istiqamətində əhəmiyyətli tədbirlər görmüşdür. Ölkəmizdə müstəqil dövlət təsisatlarının yaradılması, beynəlxalq normalara əsaslanan demokratik, hüquqi dövlət quruculuğunun böyük vüsət alması, suveren Azərbaycanın əsas qanunu olan müstəqil Konstitusiyanın qəbul edilməsi, vətəndaş cəmiyyətinin formalaşdırılması, milli təhlükəsizliyin təmin olunması və yeni iqtisadi kursun müəyyənləşdirilməsi ilə bağlı proseslərin müvəffəqiyyətli həlli ulu öndər Heydər Əliyev tarixi xidmətləridir.

Tədbirdə AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun, Yeni və ən yeni tarix şöbəsinin kiçik elmi işçisi Nilufər Ağayeva çıxış edərək qeyd etmişdir ki, ümummilli lider Heydər Əliyev Azərbaycan xalqına dərin məzmunlu müraciətində xalqın ötən yüzillikdə keçdiyi keşməkeşli və şərəfli yola, müxtəlif sahələrdə qazandığı uğur və nailiyyətlərə tarixi-politoloji aspektdə nəzər salmış, qloballaşma proseslərinin daha da genişlənəcəyi yeni əsrdə qarşıda duran vəzifələrdən söz açmışdır.

AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun əməkdaşı Kamran Mehbalıyev çıxışında qeyd etmişdir ki, ulu öndər Azərbaycan xalqının yüz ildən sonra gələcək əsrləri əhatə edən elə bir inkişafına və intibahına zəmin yaratmaq istəyirdi ki, həmin dövrlərdə yaşayacaq nəsillər üçün heç bir problem qalmasın. Ümummilli liderimiz Heydər Əliyev müraciətində qeyd etmişdir ki: ***“Müstəqilliyimiz möhkəmlənəcək, torpaqlarımız azad olunacaq, Azərbaycan Respublikası sülh və firavanlığa qovuşacaq”.*** Bu gün bu arzular Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi və Şanlı Azərbaycan Ordusunun qəhrəmanlığı sayəsində reallaşmış, müqəddəs torpaqlarımız işğaldan azad edilmişdir.

Sonda mərkəzdə yaradılan kitab sərgilərinə baxış olmuşdur.

**Xəbərlər şöbəsi**

## Kamil Əliyevin 100 illik yubileyinə həsr olunmuş açıq dərslər davam etdirilir



Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin “Kamil Əliyevin 100 illik yubileyinin qeyd edilməsi haqqında” 2021-ci il 12 oktyabr tarixli Sərəncamı, bu yubileyin muxtar respublikamızda da qeyd olunması ilə bağlı Ali Məclis Sədrinin imzaladığı müvafiq Sərəncamın icrası ilə bağlı Naxçıvan Dövlət Xalça Muzeyində “Naxçıvan” Universitetinin Pedaqoji fakültəsinin Tarix ixtisası üzrə tələbələrinə açıq dərs keçilib.

Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə keçilən açıq dərsi giriş sözü ilə muzeyin direktoru Ülviyyə Məmmədova açaraq görkəmli sənətkarın həyat və yaradıcılığı haqqında danışıb, Kamil Əliyevin xalça sənətinə bəxş etdiyi misilsiz töhfələri diqqətə çatdırıb.

Qeyd edilib ki, Kamil Əliyev toxuduğu süjetli xalçalarda, bir qayda olaraq, məğrur, mübariz, humanist simaları ilmələrlə tam ifadə etmək üçün bütün bacarığını sərf edir, hər bir portretin özünə xas kompozisiyasını yaradırdı. Böyük sənətkar Azərbaycan xalçasını, bu sənətin inkişafda olan müasir vəziyyətini dünyanın hər yerində tanıtdı. O, Azərbaycan xalçasında tarixi yaratdı, dühalarımızı, şəxsiyyətlərimizi əbədiləşdirdi.

Vurğulanıb ki, 1980-2004-cü illər arasında rəssam “Heydər Əliyev” xalçasının onlarla variantda layihəsini hazırlayır və bu layihələrdən üçünü ilmələr üzərinə köçürür. Azərbaycan incəsənətinə göstərdiyi xidmətlərə görə Kamil Əliyev 1967-ci ildə “Əməkdar rəssam”, 1982-ci ildə “Xalq rəssamı” fəxri adlarına layiq görülüb. 1999-cu ildə “İstiqlal” ordeni ilə təltif edilib.

Muzeyin baş elmi işçisi Sevinc Səbzəliyeva “Sənətin Kamil zirvəsi” mövzusunda çıxış edərək sənətkarın ömür və sənət yolları, Azərbaycan xalça sənətində qoyduğu məktəb haqqında geniş məlumat verib.

Sonda tələbələrə əyani şəkildə xalça toxunması nümayiş etdirilib və ekspozisiyaya baxış keçirilib.

***Naxçıvan Muxtar Respublikası***
***Mədəniyyət Nazirliyinin***
***mətbuat xidməti***

“Şərq qapısı” – 100

## Ceyran Nəbiyeva: “Şərq qapısı” ilk və son iş yerim kimi mənə çox əziz və doğmadır”

***Qəzetimizin 100 yaşını qeyd etdiyimiz bu günlərdə bir vaxtlar burada canla-başla çalışmış jurnalistləri axtarıb tapmağı özümə mənəvi borc hesab edirəm. Bugünkü müsahibim də bir vaxtlar “Şərq qapısı” qəzetində çalışan qadın jurnalistlərimizdən biri – Ceyran Həşim qızı Nəbiyevadır (Məmmədova). O, 29 iyul 1948-ci ildə Naxçıvan şəhərində anadan olub. Orta təhsilini 1965-ci ildə Naxçıvan şəhər 2 nömrəli orta məktəbdə bitirən Ceyran xanım həmin il Azərbaycan Dövlət Universitetinin Filologiya fakültəsinin Jurnalistika şöbəsinə daxil olub. 1969-cu ildə universiteti bitirib təyinatla “Şərq qapısı” qəzetinin Ədəbiyyat və incəsənət şöbəsinə tərcüməçi qəbul edilib, bununla yanaşı, kiçik ədəbi işçi vəzifəsini də icra edib. O, 1970-ci ildən ədəbi işçi, 1974-cü ildən isə qəzetdə müxbir vəzifəsinə keçirilib, fəaliyyətini 1996-cı ilə qədər davam etdirib. Onun publisistikasında əsas yeri Vətənə məhəbbət, incəsənət, gənc nəslin təlim-tərbiyəsi, təhsil, həyat həqiqətləri, qadın hüquqları, xalq yaradıcılığı, folklor nümunələri, gənc istedadların aşkarlanıb üzə çıxarılması və digər maraqlı mövzular tuturdu...***



*– Ceyran xanım, jurnalist olmaq arzunuz olub?*

– Əvvəla, müsahibə üçün arayıb axtardığınıza görə redaksiya heyətinə və sizə təşəkkür edirəm. Qəribə də olsa, mən Hüquq fakültəsini seçmişdim. Anamın Bakıda yaşayan qohumlarından birinin qızı Şərqşünaslıq fakültəsini bitirmişdi. O, “Məncə sən hüquqşünasdan daha çox jurnalist kimi uğur qazana bilərsən”, – dedi və səbəbini isə “Səndə yaradıcılıq həvəsi daha güclüdür”, – deyə əlavə etdi. Səhəri gün tərəddüd etmədən sənədlərimi qəbul komissiyasına təqdim etdim. Buna görə isə heç vaxt peşman olmadım.

*– “Şərq qapısı” ilə əməkdaşlığınız necə başladı?*

– Azərbaycan Dövlət Universitetinin Filologiya fakültəsinin Jurnalistika şöbəsinin (III kursda oxuyanda isə şöbə deyil, fakültə oldu) ikinci kursunu bitirib yay tətilində təcrübə üçün “Şərq qapısı”nın redaksiyasına getdim. O gün keçirdiyim həyəcanı heç unutmadım. Sanki müqəddəs bir məbədə qədəm qoyurdum. Qəzetin ovaxtkı redaktoru rəhmətlik Rəşid Qazıbəyovun: “Gəl qızım, sıxılma, bu gündən sən də kollektivimizin üzvüsən” deməyi həyəcanımı daha da artırırdı. Doğrusu, belə səmimi qarşılanacağımı düşünməmişdim. Eşitmişdim ki, Rəşid müəllim çox tələbkar və ciddi adamdır. Bu bir kəlmə isə qəlbimdə xeyli rahatlıq yaratmışdı. Mən də ürəyimdə “Güvəninizə layiq olacağam” demişdim.

*–Yaradıcılıq fəaliyyətinizlə bağlı xatirələrinizi dinləmək maraqlı olar.*

– Növbəti il yenidən təcrübəyə gələrkən evinə, ailəsinə gəlirmiş kimi söz verdim, “Bu məbəd mənim ilk və son iş yerim olacaq”. Belə də oldu. Çünki redaksiyanın bütün kollektivi ovaxtkı ifadə ilə desək, “praktikant qıza” bütün şöbələrin iş xüsusiyyətini səmimiyyətlə öyrədir, yazdığım kiçik bir xəbər üçün belə, məni ürəkdən təbrik edirdilər. Naxçıvan televiziyasında yayımlanan verilişlərin, xüsusilə uşaq və gənclərin həyatından bəhs edən verilişlərin rolu, onların keyfiyyəti barədə apardığım təhlillər komissiya üzvlərinin də nəzərindən qaçmamışdı. Mənə təyinatla Naxçıvan televiziyasına işə göndərmək təklifi edildi. Mən isə üç il idi ki, seçimimi etmişdim. Elə 1969-cu ildən yaradıcılıq taleyimi “Şərq qapısı”na bağladım.

*– Qəzetdə neçə il çalışmısınız? Rəsmi əməkdaşlığınız hansı şöbədən başlayıb?*

– Ruhu qarşısında baş əydiyim, gözəl şair, qayğıkeş müəllim kimi hörmət bəslədiyim Hüseyn Razinin müdir olduğu “Ədəbiyyat və incəsənət” şöbəsində düz 27 il birgə çalışmışıq. Hüseyn müəllim bir təcrübəli ağsaqqal jurnalist kimi, seçdiyim peşənin müqəddəsliyini mənə başa saldı. Naxçıvandan ayrılmağımın səbəbini yaxşı bilsə də, mənə həyatın sınağına dözüb qalmağımı məsləhət gördü. Qısa söhbətdən sonra qərarıma hörmətlə yanaşdı. Həyat yoldaşımın vaxtsız vəfatından sonra o şəhərdə yaşamağın çətin olacağını anlamışdım...

*– Qəzetdə hansı vəzifələrdə çalışmısınız, əməyiniz necə qiymətləndirilib?*

– O illərdə redaksiyada kiçik ədəbi işçi, ədəbi işçi və böyük ədəbi işçi ştatları var idi. Mən də bu mərhələləri keçib, müxbir və böyük müxbir vəzifələrində çalışmışam. Redaksiya komsomol komitəsinin sədri olduğum üçün ictimai işlərdə fəaliyyətimə görə, iki dəfə “Muxtar respublikanın mətbuat orqanlarında uzun illər səmərəli və qüsursuz xidmətlərinə görə” Naxçıvan MSSR Ali Sovetinin fəxri fərmanı ilə təltif olunmuşam. Ən böyük mükafatım isə oxucuların mənə olan inamı idi. Komsomol komitəsi və həmkarlar komitəsində işə dəvət olunsam da, sözümə sadiq qalaraq “Şərq qapısı” mənim ilk və son iş yerim olub.

*– O illərdə “Şərq qapısı” mətbuat orqanı kimi hansı peşəkarlıq məziyyətləri ilə seçilirdi?*

– Bəlkə də, cavabım sizə qəribə gələcək. “Şərq qapısı”, sözün həqiqi mənasında, Şərqin qapısında qərar tutmuş qədim diyarın – Naxçıvanın döyünən qəlbi idi. Onun səhifələrində qədimlik müasirliklə yanaşı qərar tuturdu. Oxucular qəzetin hər nömrəsində günün nəbzini tutan yazılarla yanaşı, tarixin maraqlı səhifələri ilə də tanış olurdular. Ən ümdəsi isə inanırdılar ki, əhalini maraqlandıran məsələlər qəzetdə işıqlandırılandan sonra mütləq öz həllini tapacaqdır.

*– Dünənki və bugünkü qəzetin fərqli və oxşar cəhətləri nədədir?*

– Məni tanıyanlar bilirlər ki, həmişə doğru tərəfdə olmuşam. Bugünkü mətbuat orqanlarına, radio və televiziya verilişlərinə iti qələmli, peşəkar jurnalistlərlə bərabər, bəzən təsadüfi adamlar, daha doğrusu, işbaz adamlar da ayaq açır, bu peşənin müqəddəsliyinə xələl gətirirlər. Etiraf edim ki, son illər yuxarıda dediklərimi doğma qəzetimə şamil etmək olmaz. Ulu diyarımızı gündən-günə gözəlləşdirən, müasirləşdirən, insanların rifah halını yaxşılaşdırmağa çalışan muxtar respublika rəhbəri mətbuat orqanlarının da öz simasını daim qoruyub saxlaması üçün əlindən gələni edir. Muxtar respublikada mətbuata göstərilən diqqətin bir nümunəsi də elə doğma qəzetin 100 yaşının dövlət səviyyəsində qeyd edilməsidir. Ali Məclis Sədrinin bu barədə çox vacib və tarixi Sərəncamı muxtar respublikada jurnalistika peşəsinə verilən qiymətin təcəssümüdür.

*– Ceyran xanım, maraqlıdır, “Şərq qapısı” sizə nə öyrətdi?*

– O mənə vətənpərvərliyi, özünü ziyalı kimi yetişdirməyi, imzasına, qəzetinə hörmət etməyi, haqqı nahaqdan ayırmağı, insanlarla ünsiyyət yaratmağı, yazdığı, söylədiyi hər sözün sahibi olmağı, Vətəni sevməyi, onun şərəf və ləyaqətini qorumağı öyrətdi. Bu gün də qəzet oxumağı, mütaliəni çox sevirəm.

*– Hazırda hansısa yaradıcı fəaliyyətlə məşğulsunuzmu?*

– Həyat yoldaşımı vaxtsız itirəndən sonra özümü toparlaya bilmədim. Bu ağır itki məni sevdiyim peşədən də ayırdı. Edilən təklifləri də geri qaytardım. Amma bu gün 74 yaşım olsa da, oxuduqlarımı, dinlədiklərimi o illərdəki kimi redaktə edirəm. Demək ki, içimdəki “jurnalist” hələ də “öz peşəsi ilə məşğuldur”.

*– Birəsrlik yubileyini qeyd etdiyimiz qəzetin keçmiş əməkdaşı kimi bugünkü həmkarlarınıza nə arzu edərdiniz?*

– Tanınmış musiqiçi Akif İslamzadənin oxuduğu “Bura Vətəndir” mahnısı hər zaman məni kövrəldir. Vətənin tikanı belə mənim üçün ətirli bir çiçəkdir. Qədim diyar gündən-günə gözəlləşir, inkişaf edir. Bu gün Naxçıvan dünyaya açılan qapıdır. Bu qapı dostların üzünə geniş açıldığı kimi düşməni də cəhənnəmə aparan yoldur. Vətən təkcə süngü ilə deyil, qələmlə də qorunur. Bugünkü həmkarlarıma iti qələm, sonsuz Vətən sevgisi arzulayıram. Və deyirəm, yüzyaşlı cavan, ad günün mübarək! Qeyrətli övladların hələ neçə yüzilliklərboyu səni yaşadacaqdır. Qəzetin bugünkü əməkdaşları, qələminiz iti, zehniniz açıq, qəlbiniz işıqlı olsun. Uğurlarınız bol, Vətən, peşə sevginiz tükənməz olsun!..

*– Çox sağ olun, Ceyran xanım, maraqlı söhbətiniz üçün minnətdarıq!*

**Güntac ŞAHMƏMMƏDLİ**

***Məqalə “Şərq qapısı” qəzetinin 100 illiyi münasibətilə keçirilən yaradıcılıq müsabiqəsinə təqdim edilir.***

***Naxçıvan Dövlət Universitetinin İncəsənət fakültəsinin sərgi salonunda Təsviri incəsənət kafedrasının baş müəllimi Siddiqə Hacıyevanın müəllifi olduğu “Naxçıvan xalçaları və tikmələri” adlı dərs vəsaiti və “Naxçıvan xalçaçılıq məktəbi” fənn proqramının təqdimatı keçirilib.***

## “Naxçıvan xalçaları və tikmələri” adlı dərs vəsaiti və fənn proqramının təqdimatı keçirilib



Təqdimatda milli-mənəvi dəyərləri əks etdirən, eləcə də Naxçıvanın xovlu, xovsuz xalça nümunələrindən kilim, cecim və sair detalların köməyilə kompozisiya qurulub. Kompozisiyanın mərkəzində milli geyimli tələbə qızlar qədim xalçaçılıq və bədii tikmə nümunələrini ictimaiyyətə təqdim ediblər.

Tədbiri giriş sözü ilə açan ali təhsil ocağının rektoru, dosent Elbrus İsayev dərs vəsaitini “Naxçıvan Muxtar Respublikasında xalça sənətinin qorunmasına və inkişaf etdirilməsinə dair 2018-2022-ci illər üçün Dövlət Proqramı”nın icrasına mühüm töhfə olaraq dəyərləndirib. Bildirilib ki, təqdim edilən dərs vəsaiti muxtar respublikada xalçaçılığın inkişafı, tətbiqi istiqamətində görülən işlərin əməli nəticəsidir. Universitetdə də bu istiqamətdə görülən işləri diqqətə çəkən rektor vurğulayıb ki, ali təhsil ocağında iki xalçaçılıq kabinəsi yaradılıb ki, onlardan biri Pedaqoji, digəri isə İncəsənət fakültəsində yerləşir. Bildirilib ki, artıq xalçaçılıq sahəsində toxunma əl işləri hazırlanır, sərgilərdə nümayiş etdirilir və satışa çıxarılır. Rektor kitabın nəinki tələbələr, hətta bu işlə həvəskar məşğul olanlar üçün də faydalı olacağını bildirib.

Universitetin Təsviri incəsənət kafedrasının professoru, Xalq rəssamı Hüseynqulu Əliyev, Naxçıvan Dövlət Xalça Muzeyinin direktoru, Naxçıvan Rəssamlar Birliyinin üzvü Ülviyyə Bağırova, Naxçıvan Dövlət Tarix Muzeyinin direktoru, Azərbaycan Rəssamlar Birliyinin üzvü Fizzə Quliyeva çıxış edib, yeni dərsliyin elmi dəyərlərindən bəhs ediblər.

Yeni nəşrin müəllifi Siddiqə Hacıyeva göstərilən qayğıya görə minnətdarlığını bildirib.

Sonda milli üslubda tərtib olunan təqdimat zalında tələbələrin miniatür kompozisiyalı, milli tikmə sənəti nümunələrindən ibarət 30-dan artıq əl işi sərgilənib.

**Etibar DƏRBƏNDƏLİYEV**

***Naxçıvan Dövlət Universitetinin Jurnalistika ixtisasının IV kurs tələbəsi***

## Muxtar respublika üzrə fərdi uçot sistemində uçota alınan sığortaolunanların sayı 182 min nəfərə yaxın olmuşdur

Hər bir ölkədə əhalinin həyat səviyyəsini təyin edən başlıca meyarlardan biri onun sosial müdafiə sisteminin vəziyyətidir. Sosial müdafiə sistemi insanların sosial problemlərinin həllinə yönəldilən sosial və iqtisadi tədbirlər toplusu kimi, ilk növbədə, əmək qabiliyyəti olmayan və ya məhdud əmək qabiliyyətli şəxslərə dövlət tərəfindən müxtəlif formalı yardımların göstərilməsini özündə əks etdirir. Bu baxımdan inkişaf səviyyəsindən asılı olmayaraq, istənilən ölkədə sosial müdafiə tədbirləri dövlət siyasətində çox böyük əhəmiyyət daşıyır.

Sosial sığorta qanunvericiliklə nəzərdə tutulmuş hallarda fiziki şəxslərin itirilmiş əməkhaqlarının, gəlirlərinin və ya əlavə xərclərinin kompensasiya edilməsinə, habelə itirilməsinin qarşısının alınmasına yönəldilmiş təminat formasıdır. Sosial sığorta sistemi məcburi dövlət sosial sığorta haqları əsasında sığortaolunanları pensiya təminatından başqa, digər sosial müdafiə hüquqları ilə də təmin edir.

Ödənilən məcburi dövlət sosial sığorta haqları həmin vətəndaşların fərdi şəxsi hesablarına işlənilir. Fərdi şəxsi hesablarda olan pensiya kapitalının miqdarı və ödəmə müddəti vətəndaşın sığorta stajını və pensiyasının məbləğini müəyyənləşdirməklə yanaşı, onlara sosial sığorta ödəmələrindən yararlanmaq hüququ yaratmış olur. Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunda qeydiyyatda olan işləyən vətəndaşlar (sığortaolunanlar) pensiya yaşına çatdıqda, sağlamlıq imkanları məhdudlaşdıqda, ailə başçısını itirdikdə, əmək qabiliyyətini müvəqqəti itirdikdə, hamiləlik və doğum zamanı, uşaq anadan olduqda və sair bu kimi sosial sığorta hadisələri baş verdikdə fond tərəfindən müvafiq ödəmələrlə, yəni pensiya ilə, əmək qabiliyyətinin müvəqqəti itirilməsinə görə, hamiləliyə və doğuma görə, uşağın anadan olmasına görə və sair müavinətlərlə təmin olunurlar.

Muxtar respublikamızda qurulmuş müasir sığorta-pensiya sisteminin mühüm bir komponenti olan fərdi uçot sistemində cari ilin ötən dövrü ərzində fond tərəfindən 2270 yeni əmək fəaliyyətinə başlayan sığortaolunan uçota alınmışdır. Bunlardan 1364-ü Naxçıvan şəhərinin, 232-si Şərur rayonunun, 235-i Babək rayonunun, 124-ü Ordubad rayonunun, 134-ü Culfa rayonunun, 47-si Şahbuz rayonunun, 87-si Kəngərli rayonunun, 47-si isə Sədərək rayonunun payına düşmüşdür. Nəticədə, hazırda fondun yerli qurumlarında fərdi uçot sistemində qeydiyyata alınaraq, sosial sığorta nömrəsi verilməklə fərdi şəxsi hesab açılmış sığortaolunanların sayı 181 min 919 nəfərə çatmışdır.

Məlumat üçün bildirək ki, Naxçıvan Muxtar Respublikasının Elektron Hökumət Portalına *(e-hokumet.nmr.az, e-sosial.az)* və ya fondun *(www.dsmf.nmr.az)* internet səhifəsinə daxil olmaqla elektron və ya asan imzası olan sığortaedənlər “Sığortaolunanın onlayn uçota alınması” elektron xidmətindən istifadə etməklə fərdi uçot sistemində uçota alınaraq sosial sığorta nömrəsinin rəsmiləşdirilməsi prosesini elektron qaydada həyata keçirə bilərlər. Həmçinin fondun fərdi uçot sistemində qeydiyyatda olan hər bir sığortaolunan özünün məcburi dövlət sosial sığorta haqlarının vaxtında və tam məbləğdə köçürülməsinə nəzarət etmək üçün “Sığortaolunanlara məlumatların verilməsi” adlı elektron xidmətdən istifadə etməklə, hər ay üzrə ödənilən məcburi dövlət sosial sığortası barədə məlumatları, həmçinin illər üzrə öz pensiya kapitalını izləyə bilər.

Xeyrinə məcburi dövlət sosial sığorta fəaliyyəti həyata keçirilməyən şəxslərin sosial sığorta ödəmələrini almaq hüququ yoxdur. Yalnız məcburi dövlət sosial sığortasına cəlb olunan şəxslər sosial sığorta ödəmələrini almaq hüququ əldə edirlər. Buna görə də hər bir işləyən vətəndaş işəgötürənlər tərəfindən onların fondun müvafiq qurumlarında fərdi qaydada qeydiyyata alınmasına və vaxtlı-vaxtında məcburi dövlət sosial sığorta haqlarının ödənilməsinə maraqlı olmalıdır.

***Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun mətbuat xidməti***

### İtmişdir

İsmayılova Arzu Qafar qızının adına olan 72-BE-562 nömrəli avtomobilin texniki pasportu itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhəri, Babək məhəlləsi bina 22, mənzil 19 ünvanında yaşayan Kalbalıyeva Kəmalə Əli qızının adına verilən MH-0006548 nömrəli reyetrdən çıxarış itdiyindən etibarsız sayılır.

***

68-BD-877 nömrəli Hyundai Sonata minik avtomobilinin 8 avqust 2017-ci ildə verilmiş AD-004667 qeydiyyat nömrəli nəqliyyat vasitəsinin qeydiyyat şəhadətnaməsi itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Gülcamal Tahirova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 982